AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

24 DEKABR 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI № 284 (8042) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ




Ölkəmiz Birləşmiş Millətlər Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, İslam Əməkdaşlıq Təşkilatı və bir sıra beynəlxalq təşkilatlarda mövqeyini daha da gücləndirib. Respublikamızın təbii ehtiyatlarından, zəngin potensialından milli maraqlara uyğun şəkildə istifadə, xalqın rifahının daha da yüksəlməsi, müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ərazi bütövlüyümüzün qorunub saxlanması dövlət siyasətinin əsas prioritetləridir. Təsadüfi deyil ki, bu gün müasir müstəqil Azərbaycanla mövcud əlaqələri şaxələndirmək, yeni əlaqələr qurmaq istəyən ölkələrin sayı olduqca çoxdur, gündən-günə inkişaf edən dövlətimiz bütün dünyada etibarlı tərəfdaş kimi qəbul olunur. İqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha yüksələn, müstəqil siyasət həyata keçirən, heç bir ölkədən asılılığı olmayan Azərbaycan Cənubi Qafqazın lider ölkəsi, regionun söz sahibidir. Bütün bunların əsasında isə mühüm bir amil dayanır: düşünülmüş siyasət, müdrik lider.

Ulu öndər Heydər Əliyev 2003-cü ildə xalqa son müraciətində deyirdi: "…Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu müraciətlə ümummilli lider canından artıq sevdiyi xalqının, ömrü boyu sədaqətlə xidmət etdiyi dövlətinin taleyini siyasi varisi İlham Əliyevə etibar edirdi. Müdrik Azərbaycan xalqı bu siyasətə alternativin olmadığını qətiyyətlə, prinsipiallıqla nümayiş etdirdi, dahi liderin siyasi kursunun layiqli davamçısı İlham Əliyevə etimad göstərərək öz Prezidentini, öz Liderini seçdi. Xalqımız dahi oğlunun son vəsiyyətini yerinə yetirməklə gələcək xoş günlərinə yol açdı.

Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən, onun ideyalarını yaşadan İlham Əliyev dövlət rəhbərliyinə gəldiyi ilk gündən müstəqil Azərbaycanın qüdrətlənməsi, beynəlxalq nüfuzunun daha da yüksəlməsi, xalqın taleyüklü probleminin həlli üçün var gücü ilə çalışdı və xalqa verdiyi bütün vədlərə əməl etdi. Dövlət başçısının müəyyənləşdirdiyi inkişaf strategiyası milli maraqların müdafiəsinə yönəldi, xalqa xidmət və rifahın artırılması prinsipinə əsaslandı. Respublikamızın yeraltı-yerüstü sərvətləri, maddi dəyərləri, iqtisadi potensialı dövlətin dayaqlarının möhkəmləndirilməsinə, hərbi sahədə güclənməsinə və insan kapitalına sərf olundu. Elmi-texniki, ticari, mədəni əlaqələr genişləndirildi, dövlətin əsaslarından birini təşkil edən iqtisadiyyat yenidən quruldu, həyata keçirilən konsepsiyalar, aparılan sosial-iqtisadi siyasət nəticəsində Azərbaycan inkişaf tempinə görə qabaqcıl ölkələr sırasına qoşuldu, üzv olduğu nüfuzlu beynəlxalq təşkilatlarda yüksək etimad qazandı.

**(davamı 18-ci səhifədə)**

# Çoxəsrlik tariximizin şanlı səhifəsi:

# Qalib sərkərdə, güclü dövlət, qürurlu xalq

**(əvvəli 1-ci səhifədə)**

Qabaqcıl təcrübə və texnologiyalara əsaslanaraq milli ordunun formalaşması, təkmilləşməsi istiqamətində təxirəsalınmaz tədbirlər görüldü. Ulu öndərin ordu quruculuğu siyasəti Prezident İlham Əliyev tərəfindən, nəinki uğurla davam etdirildi, eyni zamanda miqyas və mahiyyət etibarı ilə yeni mərhələyə qədəm qoydu. Dövlət rəhbərinin göstərişi ilə həyata keçirilən kompleks tədbirlər-Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, hərbçilərin sosial təminatının gücləndirilməsi, müdafiə qabiliyyətinin artırılması Azərbaycan Ordusunu dünyanın 50 ən güclü ordu sıralarına yüksəltdi.

Bu gün ölkədə gedən proseslər, bölgədəki mövqelərimiz, dünyada baş verənlərə təsir imkanlarımızın artması ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir. Artıq 21 ildən çoxdur ki, müstəqil respublikamıza rəhbərlik edən Prezident İlham Əliyevin uğurlu diplomatiyası sayəsində Azərbaycan sürətli inkişaf və modernləşmə dövrünü yaşayır, qlobal miqyasda nüfuzlu dövlətə çevrilib. Dövlət başçısının müəyyənləşdirdiyi inkişaf strategiyası, reallaşdırılan genişmiqyaslı layihələr respublikamızı inkişaf etməkdə olan ölkələr səviyyəsinə yüksəldib, uğurlu sosial-iqtisadi siyasət bütün sahələrdə önəmli dönüş yaradıb. Verdiyi qərarlarda, irəli sürdüyü təşəbbüslərdə insan amilini hər şeydən uca tutan Prezident İlham Əliyev ölkə vətəndaşlarının hüquq və azadlıqlarına böyük diqqət və hörmətlə yanaşır. Uzaqgörənlik, yüksək intellekt, praqmatik düşüncə, hadisələri analiz etmək bacarığı, qətiyyət, cəsarət, prinsipiallıq və bütün bunların yaratdığı mahir liderlik qabiliyyəti İlham Əliyevin dünyada sayılıb-seçilən, sözü imzası qədər keçərli, Azərbaycan xalqının dayağı olan müdrik lider imicini formalaşdırıb.

Mötəbər kürsülərdən heç vaxt ərazilərimizin işğal altında qalması ilə barışmayacağımızı, torpaqlarımızı nəyin bahasına olur-olsun azad edəcəyimizi bəyan edən İlham Əliyev ölkə rəhbərliyinə gəldiyi gündən bu amal uğrunda mübarizə apardı. Bu mübarizə onun daxili və xarici siyasətinin əsas qayəsinə çevrildi və 17 illik gərgin fəaliyyət, qətiyyəti, sarsılmaz iradə sayəsində xalqımızın taleyüklü məsələsi öz həllini tapdı. İkinci Qarabağ müharibəsində 300-dən artıq yaşayış məntəqəsi, strateji yüksəkliklər, Şuşa, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, şəhər tipli Suqovuşan, Hadrut qəsəbələri, Xocavənd rayonunun bir hissəsi, Murovdağ dağ silsiləsi işğaldan azad edildi. Ermənistan təslimolma aktı imzaladı və Ağdam, Laçın, Kəlbəcər rayonları döyüşsüz Azərbaycana geri qaytarıldı. Düşmənin kapitulyasiyasından sonra hərbi əməliyyatlar dayandırılsa da Xankəndi və ətraf ərazilərdəki separatçı rejim və Ermənistan ordusunun birləşmələri terror və təxribatlardan əl çəkmirdi. Ona görə də ötən il sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri nəticəsində həmin rejim ləğv edildi, ordu bölmələri təslim oldular. Beləliklə Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsi həm hərbi, həm də siyasi yolla həll olundu.

Xalq-iqtidar birliyi, cəmiyyətin milli ideya ətrafında birləşməsi, vətəndaş həmrəyliyi uzaqgörən, praqmatik dövlət başçısının sayəsində mümkündür. Keçmiş Qarabağ münaqişəsinin həlli də məhz bu amilə əsaslandı. Yaşından, vəzifəsindən, mövqeyindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı Prezidentin ətrafında birləşərək bir yumruğa çevrildi. Azərbaycan həm döyüş meydanında, həm də informasiya məkanında məkrli düşmənlə üz-üzə dayanaraq gücünü və müstəqil siyasət aparan dövlət olduğunu göstərdi. 44 günlük Vətən müharibəsi zamanı ölkə başçımız dünyanın aparıcı media qurumlarının nümayəndələrinə verdiyi 30-a yaxın müsahibəsində Ermənistanın on illərlə davam edən məkrli, qərəzli, Azərbaycanofob siyasətini ifşa etdi. Ali diplomatiya, yüksək analitik qabiliyyət, dərin məlumatlılıq və fenomen natiqlik bacarığı göstərərək Azərbaycanın haqlı olduğunu sübuta yetirdi. Bütün dünya şahid oldu ki, biz müstəqil ölkə, azad xalq kimi yaşamaq, dövlətçiliyimizi, ərazi bütövlüyümüzü qoruyub saxlamaq iqtidarındayıq.

İkinci Qarabağ müharibəsində çoxəsrlik tariximizin şanlı səhifəsi yazıldı. Xalqımızın mərdlik, mübarizlik, yenilməzlik simvoluna çevrilən və tarix durduqca öz mahiyyətini itirməyəcək, gələcək nəsillərə qürur, fəxarət hissi yaşadacaq 44 günlük Vətən müharibəsindəki Qələbə Müzəffər Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasətinin möhtəşəm nümunəsidir. Uzun illər boyu bu şanlı Zəfərə doğru addım-addım irəliləyən, böyük səbr və təmkinlə qalibiyyətə köklənən uzaqgörən diplomatiya son sözünü dedi: "Qarabağ Azərbaycandır!". Müdrik lider qətiyyətlə bütün dünyaya bəyan etdi: "Bura heç vaxt erməni torpağı olmayıb və bundan sonra heç vaxt olmayacaq. Bu, Azərbaycan torpağıdır. Biz azərbaycanlılar - bu torpaqların sahibləri qayıtmışıq".

Müharibə başa çatandan dərhal sonra işğaldan azad olunan dörd Lüksemburq boyda ərazidə genişmiqyaslı quruculuq işləri başlayıb. 30 il düşmən əsarəti altında qalan torpaqlarımız yenidən canlanır, kənd, şəhər və qəsəbələr salınır, məcburi köçkünlər doğma yurd yerlərinə qayıdırlar. Şəhər və kəndlərin bərpası ilə yanaşı, infrastruktur layihələr reallaşdırılır, xəstəxana, məktəb, məscid, muzey, yaşayış binaları, mədəniyyət obyektləri inşa olunur. Hava limanları, dəmir yolları, tunellər istifadəyə verilir. Bərpaolunan enerji baxımından böyük potensiala malik olan ərazilər "yaşıl enerji zonasına" çevrilir, istehsal sahələri yaradılır. İşğaldan azad olunmuş bütün ərazilərin bərpasını əhatə edən Böyük Qayıdış proqramı uğurla icra olunur. Dövlətimizin yaxın gələcək üçün hədəflərində 2026-cı ilin sonuna qədər 140 mindən çox keçmiş məcburi köçkünün öz doğma evlərinə qayıtması nəzərdə tutulub. Müharibədən keçən qısa zaman kəsiyində artıq bir neçə şəhər və kəndlərimizdə yaşayış bərpa edilib, 10-a yaxın şəhər və 90-dan çox kəndin Baş planının təsdiqlənməsi, yeni kəndlərin təməlinin qoyulması, heç bir dövlətdən siyasi-iqtisadi asılılığı olmayan müstəqil Azərbaycanın gücünün qüdrətinin, ölkə başçısının uğurlu siyasətinin bariz göstəricisidir.

Güclü dövlət, güclü iqtisadiyyat, azərbaycançılıq fəlsəfəsi, xalqımızın milli ideya ətrafında birləşməsi, ölkənin milli-mənəvi dəyərlər əsasında inkişafı Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin prioritet istiqamətidir. Bu praqmatik siyasət nəticəsində Azərbaycan həm regionda, həm də beynəlxalq arenada böyük nailiyyətlər əldə edib. Ölkə həyatının bütün sahələrində sürətli inkişafa nail olan, müstəqilliyimizi daha da möhkəmləndirən, dövlətimizin suverenliyini, ərazi bütövlüyünü təmin edən, işğal altında olan torpaqlarımızı azadlığına qovuşduran İlham Əliyev həm iqtisadi, siyasi, həm də hərbi sahədə böyük uğurlara imza atıb. İrəli sürdüyü qlobal təşəbbüslər dövlətimizi beynəlxalq münasibətlər sistemində vacib aktora çevirib. Azərbaycanın sülh təşəbbüsləri, Avropanın enerji təhlükəsizliyində mühüm rolu, enerji, nəqliyyat və investisiya sahələrində razılaşmalar etibarlı tərəfdaş potensialını daha da artırır, təhlükəsizliyə, sabitliyə, qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasına, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişafına mühüm töhfə verir. Əldə olunan uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına, 2030-cu ilə qədər ölkənin iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan cəmiyyətə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Prezident İlham Əliyevin dərin zəkası ensiklopedik biliyi, geniş dünyagörüşü, məqsədyönlü siyasəti, çevik qərar qəbul etmə, gələcəyi dəqiq planlaşdırma məharəti müasir Azərbaycanın bugünkü reallıqlarını yaradıb, gələcəyə aparan yolları müəyyənləşdirməklə müstəqil Azərbaycanın tərəqqisini təmin edib. Müstəqil, çevik və balanslı siyasət yürüdən dövlətimiz daha uca zirvələrə doğru inamla,qətiyyətlə irəliləyir.



**Mehparə ƏLİYEVA,**
**"Respublika".**